**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2710-0820.2024.2.26**

**Babayev Lətif**
*Tarix üzrə fəlsəfə doktoru*
*babayevl@mail.com*
*Azərbaycan*

# AZƏRBAYCAN XALQ CÜMHURIYYƏTİNİN DÖRDÜNCÜ HÖKUMƏTİNİN ÖLKƏNİN HƏRBİ, SİYASİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA FƏALİYYƏTİNƏ DAİR

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, təhlükəsizlik, hərbi və siyasi təhlükəsizlik, müstəqillik, dövlət, hökumət, parlament, müdafiə, ərazi, ordu*

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi, ümumən dünyada, eləcə də keçmiş çar Rusiyasından ayrılmış Cənubi Qafqazda çox mürəkkəb proseslərin getdiyi, sürətli dəyişikliklərin baş verdiyi gərgin bir dövrə təsadüf etmişdi. Hələ başa çatmamış Birinci Dünya müharibəsi və məhəlli münaqişələr zəminində regionda öz maraqlarını təmin etməkdə qərarlı olan böyük dövlətlər yeni cümhuriyyətləri siyasi, iqtisadi, hərbi cəhətdən öz təsir dairələrinə salmağa, təbii ehtiyatlarla zəngin olan bu ərazilərdə söz sahibi olmağa çalışırdılar. Belə mürəkkəb və qeyri-sabit şəraitdə Azərbaycanın gənc müstəqil dövləti müstəqilliyinin real məzmun kəsb etməsi üçün təxirəsalınmaz tədbirlər görməli, ən başlıcası ölkənin həm xaricdən, ilk vaxtlar Bakı XKS-nin timsalında həm də daxildən gözləyən real təcavüzlərdən etibarlı müdafiəsini təmin etməli idi. Bu baxımdan dövlət təhlükəsizliyinin təmin olunması məsələsi müstəqil dövlətin yaradıldığı ilk gündən aktual olmuşdur. Əslində, Azərbaycana və onun əsasən türk-müsəlman əhalisinə qarşı real təhlükələr dövlət müstəqilliyinin əldə edilməsindən əvvəl də mövcud idi.

Azərbaycanın 4-cü hökumətinin fəaliyyətə başladığı 1919-cu ilin aprel ayında müstəqil dövlətin təqribən 1 ilə yaxın müddətdə mövcud olmasına baxmayaraq, bu təhlükələrin bir hissəsi hələ də aktual olaraq qalırdı. Bunların sırasında daxildə bəzi qüvvələrin təxribatçı hərəkətlərindən qaynaqlanan problemlərlə yanaşı, şimaldan və cənubdan Rusiyada hakimiyyəti ələ almış bolşeviklərin, eləcə də çar Rusiyasını keçmiş əraziləri daxilində bərpa etmək iddiasında olan Denikinin Könüllü ordusunun doğurduğu real təhdidlər, cənubi-qərbdən Ermənistan tərəfindən gözlənilən təcavüz təhlükəsi, ölkənin böyük bir ərazisini təşkil edən Lənkəran qəzasında idarəçiliyin Azərbaycana düşmən qüvvələrin əlində olması, qonşularla, başlıcası ermənilərlə ərazi-sərhəd problemlərindən qaynaqlanan gərgin vəziyyət, dövlət quruculuğunun müxtəlif istiqamətlərində qarşıya çıxan çətinliklər və digər aktual məsələlər vardı. Bu məsələlərin həlli, dövlətin təhlükəsizliyinin hərtərəfli təmin edilməsi mövcud və potensial təhlükələrin neytrallaşdırılması istiqamətində konkret addımların atılmasını tələb edirdi.

Qeyd olunan mühüm təhlükəsizlik problemləri sırasında ölkənin hərbi təcavüzlərdən qorunması, müdafiənin təşkili ən mühüm məsələ kimi qarşıda dururdu. Həmin təcavüzlərdən ən realı Bakı neftinə və digər sərvətlərə sahiblənmək üçün Azərbaycanı istila etmək üçün məqam gözləyən bolşevik Rusiyası və Denikinin Könüllü ordusu idi. Bu qüvvələrin öz işğalçı niyyətlərini reallaşdırması hər şeydən əvvəl öz aralarında apardıqları mübarizənin nəticəsindən asılı olduğundan, onlar ilk vaxtlar Azərbaycandan öz rəqiblərinə qarşı istifadə məqsədi ilə açıq təzavüz planlarını mümkün qədər gizlətməyə çalışırdılar. Ancaq hər fürsətdə həmin gizli planlarını büruzə verir, Azərbaycanı tamamilə öz hakimiyyətlərinə tabe etdirmək məqsədlərini müxtəlif formalarda, o cümlədən rəsmi notalar vasitəsi ilə ifadə edirdilər. Digər tərəfdən, 4-cü hökumətin fəaliyyətə başlamasından 6 ay əvvəl, Birinci Dünya müharibəsində məğlubiyyəti səbəbindən Osmanlı hərbi qüvvə-

lərinin ölkəni tərk etmək məcburiyyətində olması ilə bağlı Azərbaycan həmin təcavüzlər qarşısında öz müdafiəsinin təşkilində tək qalmışdı. Müttəfiqlər adından ölkədə yerləşmiş ingilis hərbi qüvvələri və missiyasının da bolşeviklər tərəfindən gözlənilən hərbi təcavüz qarşısında Azərbaycana lazımi köməklik göstərəcəyi az ehtimal edilirdi. Müstəqil Azərbaycan dövlətinin öz ərazisini xarici təcavüzlərdən etibarlı müdafiə etməsində güvənəcəyi yeganə qüvvə hələ tam formalaşmamş milli ordusu idi.

Cümhuriyyətin 4-cü hökumətinin başçısı N.Yusifbəyli və onun təşkil etdiyi hökumət kabinəsinin üzvləri bu reallığı düzgün qiymətləndirir, müstəqilliyin qorunması, dövlətin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirlərin görülməsinə çalışırdılar. Bunu 1919-cu il aprel ayının 14-də öz vəzifələrinin icrasına başlayan Baş nazirin Azərbaycan parlamentinin 29-cu iclasındakı yeni hökümətin proqramı ilə bağlı çıxışı da göstərir. Həmin çıxışında xarici siyasət sahəsində əsas vəzifənin böyük dövlətlərin Azərbaycanın suverenliyini tanımaqlarına nail olmaqdan, ölkənin ərazi bütövlüyünü təmin etməkdən, qonşu dövlətlərlə mehriban, xoş münasibətlər saxlamaqdan ibarət olacağını qeyd edən Baş nazir deyirdi: “Təşkil etdiyim hökumət, üzərinə nə qədər ağır və nə qədər böyük bir məsuliyyət almış olduğunu anlayır... müstəqilliklə bərabər qarşımızda heç də az əhəmiyyətli olmayan başqa vəzifələr də durur ki, onların tezliklə həll edilməsini hökumət özünün təxirəsalınmaz və müqəddəs borcu hesab edir. Məlumunuzdur ki, Azərbaycanın ayrılmaz bir hissəsini təşkil edən Lənkəran qəzası hələ yadlar əlindədir. 100 minə qədər vətəndaşımız hər an təhlükələrə, təhqirlərə və təzyiqlərə məruz qalır. Azərbaycanın Tiflis və İrəvan vilayətlərində olan hissələrinə göz dikənlər dəxi vardır”. [1;195].

Dördüncü hökumətin fəaliyyətə başladığı dövr respublikada iqtisadi böhranın güclənməsinə təsadüf etmişdi. Hökumət kabinetinə daxil olmayan “Hümmət”çi bolşeviklər fəhlələri nümayişə təhrik edir, böhranı dərinləşdirməyə çalışırdılar. Qarşıda gözlənilən 1 may nümayişləri kövrək olan daxili vəziyyəti daha da gərginləşdirə bilərdi. Bakı fəhlə konfransının bolşevik liderləri hökumətin qadağalarına baxmayaraq, tətil etməkdə israrlı idilər. Digər tərəfdən, ölkənin əsas məhsulu olan neftin əlverişli bazar olan Rusiyaya satılmasına qarşı tərəfin əsassız tələblərlə mane olması iqtisadi vəziyyəti daha da ağırlaşdırırdı. Parlamentin 1919-cu il 6 may tarixli iclasında N.Yusifbəyli bununla bağlı hökumətin qəti mövqeyini ifadə etmişdi: “Onlar öz məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, o cümlədən də Azərbaycanda, onu Rusiyanın bir parçası hesab edirlər, sovet hökuməti təşkil edək… əsl məqsəd Azərbaycanı Rusiyaya ilhaq etməkdir. Əgər Rusiya bizim istiqlalımızı tanıyarsa, bizimlə hesablaşırsa o zaman neft verərik. Bunlar olmayınca hökumət sovetlərə neft verməz”. [1; 225-226].

Hökumət ölkəninin bütün ərazisində hakimiyyətin bərqərar olunması üçün ən qəti tədbirlər görülməsinə çalışırdı. Çünki bu dövrdə Azərbaycan hökuməti respublikanın qanuni ərazilərinin üçdə birində əsl həqiqətdə, real hakimiyyətə malik deyildi və pozucu qüvvələr getdikcə fəallaşırdılar. Bir yandan xarici müdaxilə təhlükəsi, digər tərəfdən, daxili sabitliyin kövrəkliyi vəziyyəti gərginləşdirmiş, antiazərbaycan qüvvələri hərəkətə gətirmişdi. Belə bir şəraitdə ümumən gənc respublikanın taleyi ciddi təhlükə altında idi və yeganə xilas yolu hökumətin qətiyyətli addımlar atmaqla ölkədaxili proseslərə nəzarət imkanları əldə etməsindən, əhalinin müdafiəsi, əmin-amanlığın bərpasına qadir olduğunu sübuta yetirməsindən asılı idi. Sonrakı aylarda Lənkəran qəzasında oyuncaq Muğan respublikasının aradan qaldırılması və yerli idarəçiliyin nəzarətə götürülməsi yeni hökumətin gənc dövlətin təhlükəsizliyinin, müstəqilliyinin möhkəmləndirilməsi üçün tam qətiyyətlə hərəkət etdiyindən xəbər verirdi. Artıq bu istiqamətdə növbəti mühüm addımların atılacağına, ölkənin separatçı qüvvələrdən tam təmizlənməsi ilə təhlükəsizliyin təmin olunacağına kimsədə şübhə qala bilməzdi. [12;11].

Eyni qətiyyət Dağıstanda gedən proseslərə münasibətdə də nümayiş etdirilirdi. Müstəqil Dağıstanın qırmızı Rusiya ilə Azərbaycan arasında bir sədd olmasını təhlükəsizliyin təminatı baxımından vacib hesab edən hökumətin sədri orada tökülən qanlara bölgə əhalisinin böyük əksəriyyətinin milli mənsubiyyətinə görə etirazını bildirməklə yanaşı, məsələyə yalnız dini və etnik yaxınlıq baxımından qiymət verməklə qalmır, Dağıstan və Azərbaycan dövlətlərinin

ortaq strateji maraqlarını mühüm amil kimi dəyərləndirirdi: "Dağlılar İttifaqı Cümhuriyyəti ilə bizim aramızda ixtilaf deyil, tam anlaşma və həmrəylik var. Sizə məlumdur ki, Denikinin ordusu Şimali Qafqazın üzərinə hücum edərək cəsur və şücaətli dindaşlarımızın qarlı dağlarını al qanlara boyayıb, onları və onlarla bərabər bizləri yenidən əsarət altına almaq fikrindədirlər. Halbuki, bu işin o qədər qolay olmadığını Qafqaz qartalları bu günlərdə o zalımlara qanlı dərslər verməklə isbat edirlər. Mücahid qardaşlarımız bilməlidirlər ki, biz hər zaman onlarla bərabərik. Digər qonşularımızla da indiyə qədər olduğu kimi, sülh və barışıq içində yaşayacağıq. Sevgili Azərbaycanımızın şan və heysiyyətini mühafizə etməklə bərabər, hökumət qonşular arasında baş verən bütün məsələlərin sülhlə həll edilməsi tərəfdarıdır". [1;195].

Baş nazir Könüllü ordu hissələrinin sərhədlərə qədər gəlib çatmasından Azərbaycan hökumətinin ciddi narahatlıq keçirdiyini müttəfiqlərin komandanlığına bəyan etməklə, denikinçilərin Dağıstandan çıxarılması üçün qəti və təxirəsalınmaz tədbirlər görülməsini xahiş etmişdi. 1919-cu il may ayının sonlarında, xüsusi ilə iyun ayında bir-birinin ardınca hökumət səviyyəsində müxtəlif tədbirlərin görülməsi, eyni zamanda, parlamentin fövqəladə iclaslarının keçirilməsi yaranmış vəziyyətin son dərəcə təhlükəli olduğunu göstərirdi.

1919-cu il iyun ayının 5-də Azərbaycan parlamentinin növbəti iclasında hökumət başçısının çıxışı vəziyyətin gərginliyini çatdırmaq baxımından diqqətəlayiqdir. Baş nazir parlament üzvlərini bir neçə gün əvvəl Rusiya Silahlı Qüvvələrinin komandanı general Denikinin Azərbaycanın istiqlalını tanıması haqqındakı məktubunun məzmunu ilə tanış etdiyini xatırladır və qeyd edirdi ki, o sözlərə "nə mən oxuyan, nə də siz eşidən zaman etibar etməməmişdiniz. Həmin məktubunun mürəkkəbi qurumamış, əvvəlkinin tam əksinə olan ikinci məktubu oxuyanda Denikinin bəyanatına şübhə etməkdə nə qədər haqlı olduğumuzu bilərsiniz". "Məsələnin Rusiyada təşkil olunacaq ali hakimiyyət tərəfindən həllinə qədər Azərbaycanın istiqlalını münasib bilir və tanıyırıq. Polkovnik Lazaryev". [1; 290].

Bu məktubla bağlı Cənubi Qafqazda olan müttəfiq qüvvələrin yeni baş komandanı general Q.Kori və Bakıdakı ingilis qüvvləri komandanı polkovnik Şatalvertlə görüşən Nəsib bəy onların "nə tədbir görürsünüz" sualına cavab olaraq demişdi: "...vətənimizi müdafiə edəcəyik. Buna görə hər bir tədbir görürük və görəcəyik". Baş nazir daha sonra onlara verdikləri vədləri xatırlatmış: "Sizin vədləriniz olmasaydı biz Dağıstana böyük kömək göndərərdik, daha bu gün Dağıstan məğlub və sərhədimiz təhdid altında olmazdı. Siz o vaxt vəd verdiniz, bunun nəticəsi nə oldu? Nəticədə Denikin Şimalı Qafqazı tutdu", demişdi". [1;291].

Azərbaycanın üzləşdiyi bu təhlükələr, açıqgizli təhdidlər, xüsusi ilə müdafiə sahəsində hökumət tərəfindən təcili və kompleks tədbirlər görülməsini tələb edirdi. Həmin vaxt ölkənin ərazi bütövlüyünün təmin edilməsi, sərhədlərin mühafizəsinin, təhlükəsizliyin möhkəmləndirilməsi, bolşeviklərin pozuculuq fəaliyyətinin qarşısının alınması kimi məsələlər də aktual olaraq qalırdı. Bütün bu problemlərin həlli üçün parlamentinin tövsiyəsi ilə Nazirlər Şurası 1919-cu il iyun ayının 9-da fövqəladə səlahiyyətlərə malik Dövlət Müdafiə Komitəsinin (DMK) yaradılması haqqında qərar qəbul etdi. [8;32].

DMKnın, əsasən, müdafiə məsələləri ilə məşğul olmaqla ölkə ərazisində hərbi, müharibə vəziyyətləri elan etmək, ümumi hərbi səfərbərlik keçirmək, könüllü müdafiə dəstələri yaratmaq, həmin vəzifələrin daha uğurla yerinə yetirilməsi üçün yeni strukturlar təşkil etmək və sair geniş səlahiyyətləri vardı. Ölkə həyatının ən mühüm sahələrində təhlükəsizliyin təmin olunmasına məsul olan bu dövlət qurumuna Baş nazir sədrlik edirdi. DMK-ya mühüm sahələrin rəhbərləri, hərbi, xarici işlər, nəqliyyat, ədliyyə nazirləri də daxil idi. DMK fəaliyyətə başladığı ikinci gün bütün respublika ərazisində hərbi vəziyyət elan etdi.

DMK vəziyyətlə əlaqədar dövlət orqanlarından gələn təklifləri müzakirə edir, xüsusi ilə müdafiə və təhlükəsizlik məsələləri ilə bağlı təxirəsalınmaz qərarlar qəbul edirdi. Bu baxımdan, Baş Qərargah rəisi general-leytenant M.Sulkeviçin DMK-ya ünvanlanmış 1919-cu il 26 iyun tarixli, 3152 saylı raportu xarakterik sayıla bilər. "Yaranmış siyasi vəziyyət dövlətin müdafiəsinin təşkili üçün təcili və qəti tədbirlərin görülməsini tələb edir" cümləsi ilə başlayan raportda Dağıstanda yaranmış vəziyyətlə bağlı

artıq Dərbəndi tutan Könüllü ordunun istənilən vaxt Azərbaycan ərazisinə keçə biləcəyi göstərilir, daha sonra deyilrdi: “Qarabağ hadisələri, Lənkəran qəzasında iğtişaşlar, şübhəsiz ki, Könüllü ordunun Dağıstanda peyda olması ilə əlaqəlidir və dövləti təhlükə təkcə şimaldan deyil, cənubdan və qərbdən də gözləyir”. [9;1].

Baş Qərargah rəisinin raportda göstərdiyi məqamlar hökumətin, eləcə də DMK-nın bu istiqamətdə qəbul etdiyi qərarlarda, o cümlədən Lənkərana xüsusi hərbi qüvvə göndərilməsi ilə bağlı qərarda nəzərə alınmışdı. Bu qərar əsasında hərbi nazirin əmri ilə Lənkəran şəhərinin alınması və həmin rayonda qayda-qanunun yaradılması, Azərbaycan hakimiyyətinin bərqərar olunması üçün Ümumi Qərargah rəisi general-mayor Səlimovun komandanlığı altında üç növ qoşun hissəsindən ibarət xüsusi dəstə təşkil edilmiş və Lənkərana göndərilmişdi. Müdafiə nazirinin məlumatına görə: “Hacıqabuldan Lənkərana və geriyə olan 430 verstlik məsafəni bərk istilərdə bizim gənc ordumuz xəstələr və arxada qalanlar olmadan 15 günə qət etmişdir.. Əsl hərbi görkəmi və nümunəvi nizam-intizamı ilə hamıda güclü təəssürat yaradan dəstə zəngin hərbi qənimətlə Lənkəran qəzasını və Muğanı əzizimiz Azərbaycanın ağuşuna qaytardı”. [7;77].

Dövlət Müdafiə Komitəsinin ilk qərarlarından, dövlətin təhlükəsizliyinin möhkəmləndirilməsi yolunda mühüm addımlardan biri iyun ayının 11-də Azərbaycanın ilk müstəqil xüsusi xidmət orqanı – “Əksinqilabla mübarizə təşkilatı”nın yaradılması oldu. Bununla Azərbaycanda kəşfiyyat və əks-kəşfiyyat işini həm də mülki təşkilatlar və əhali arasında daha peşəkar səviyyədə aparacaq, dövlət müstəqiliyinin, ərazi bütövlüyünün təminatı, separatçılığın, xarici və daxili düşmən qüvvələrin istənilən qara niyyətlərinin qarşısının alınması sahəsində fəaliyyət göstərəcək bir qurumun formalaşdırılmasına başlanıldı. Bu təşkilatın yaradılmasına qədər Azərbaycanda yalnız hərbi sahədə kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətini həyata keçirən qurum mövcud idi. Həmin qurum 1919-cu il mart ayının 28-də hərbi nazir S.Mehmandarov və Baş Qərargah rəisi M.Sulkeviçin imzaladıqları 157 saylı əmrlə Hərbi nazirliyin Baş Qərargahının General-kvartirmeyster şöbəsinin tərkibində yaradılmış “Kəşfiyyat və əks-kəşfiyyat” bölməsi idi.

1919-cu ilin yayında daha da fəallaşan Denikin artıq Cənubi Qafqaz respublikalarını özünə tabe etdirmək niyyətini gizlətmirdi. Azərbaycan hökumətinə ünvanlanmış notada deyilirdi: “Cənubi Rusiya silahlı qüvvələrinin Baş komandanlığı yanında Dənizçilik idarəsi bunu bildirməyi zəruri hesab edir ki, Azərbaycanın hərbi-ticarət gəmilərinin rus bayrağından başqa hər hansı bayraqla üzməsinə yol verməyəcəkdir”. Bu əsassız notanı Azərbaycanın suveren hüquqlarına qarşı yönəlmiş akt kimi qiymətləndirən Azərbaycan Dövlət Müdafiə Komitəsi Xarici İşlər Nazirliyinə ona aşağıdakı məzmunda cavab verilməsini tapşırmışdı: “Rusiya və İran arasında imzalanmış Türkmənçay müqaviləsi yalnız Rusiya və İran üçün məcburi ola bilər, bu, yeni yaranmış dövlətlərə aid deyildir; Xəzər dənizi sahillərində yerləşən Azərbaycanın limanları və ticarət gəmiləri vardır və bu gəmilər Azərbaycan bayrağı altında üzəcəkdir”. [6;91-93].

Ölkənin yaxın sərhədlərində, xüsusi ilə şimal istiqamətində baş verən hadisələr və proseslər bütün fəaliyyəti dövründə 4-cü hökumətin xüsusi diqqətində olmuşdur. Şimalda yaranmış təhlükəli vəziyyət müdafinin təşkili üçün təcili tədbirlər görülməsi ilə yanaşı, general Denikinin niyyətləri barəsində xarici dövlətlərin, ilk növbədə onu dəstəkləyən müttəfiqlərin xəbərdar olunmasını tələb edirdi. Əks-təqdirdə Dağıstanda planlarını reallaşdıran Denikin öz qüvvələrini Azərbaycana yeridə, ölkənin müstəqilliyini ciddi təhlükə altında qoya bilərdi. Daxilində və xaricdən gözlənilən digər təhlükələri də nəzərə alan Baş nazir bu məsələlərin həllində parlamentin əksər fraksiyalarının dəstəyinin qazanılmasının lazım olacağını bilirdi. Çünki 4-cü hökumətdə bir neçə fraksiya təmsil olunmurdu və bəzi qərarların qəbulunda onların mümkün qədər loyallığına nail olunması lazım gələcəkdi: “Təşkil etdiyim kabinet parlamentin bütün fraksiyalarını əhatə etmir. Onun üçün, təbii, sizin aranızda müxalifətdə qalanlar da olacaqdır. Mən ancaq bir şeyə əminəm, o da istiqlaliyyət məsələsində olan birliyinizdir. Bunun üçün də var qüvvəmlə və böyük inamla çalışacağımı vəd edirəm”. [3;70-72].

Əvvəlkilərlə müqayisədə dördüncü hökumətin fəaliyyət dövrü Cümhuriyyətin dövlət təhlükəsizliyinin təmin olunması sahəsində ən

intensiv dövr hesab edilə bilər. Belə ki, həmin dövrdə təhlükəsizlik məsələləri ilə bağlı mühüm və məqsədyönlü addımlar atılmış, yeni strukturlar yaradılmışdır. Kompleks və ardıcıl xarakter daşıyan fəaliyyət nəticəsində dövlət qurumları arasında əlaqələndirmə gücləndirilmiş, tədbirlərin coğrafiyası və tətbiq sahələri genişləndirilmiş, işin daha səmərəli təşkilinə nail olunmuşdur.

Mövcud daxili vəziyyətdə respublikada sabitliyə nail olunması bolşeviklərin törətdiyi təxribatların qarşısının alınması üçün lazımi tədbirlərin görülməsini tələb edirdi. "Azərbaycan" qəzeti 22 avqust 1919-cu il tarixli sayında daxili işlər naziri (vəziyyətlə əlaqədar olaraq bu vəzifəni Baş nazir icra edirdi – L.B.) 22 avqustda ingilislərin Bakıdan getməsi ilə əlaqədar əhali arasında bolşeviklər tərəfindən şayiələr yayılması ilə bağlı əhaliyə müraciətində onları sakitliyə, təxribatlara uymamağa çağırır, hökumətin heç bir zorakılığa yol verməyəciyini bildirdirirdi. [10].

Parlamentin 1919-cu il avqustun 28-də keçirilən iclasında ölkənin hansı təhlükələr qarşısında olduğu məsələsinə aydınlıq gətirən Baş nazir deyirdi: "Vətənimizi xarici düşməndən müdafiə etsək və edə bilsək Avropa bizim istiqlalımızı tanıyacaqdır. Denikinə qarşı hər tərəfdə müdafiə məqsədi ilə tədbirlər görülür. Fəqət, məlumunuzdur ki, bizim xarici düşmənlərimiz içində yalnız Denikin deyil, bolşevik qüvvəti də vardır. Bütün dünya bu qüvvənin qarşısında kəndimizi necə saxlaya biləcəyimizi dörd gözlə gözləyir. Biz indi çox mühüm imtahan dövrləri keçiririk. Təəssüf, bu xüsusda hamınız həmrəy deyilsiniz. Bəziləri bu xüsusda hökumətə kömək etməkdən çox, mane olur. Denikinə qarşı həmrəy olduğu halda, iş bolşevizmə gələndə başqa surətdə davranırlar. Rica edirəm, hökumətin yardımlara ehtiyacı vardır. Əgər, biz öz istiqlalımız uğrunda əl-ələ verər, ittifaqla hərəkət edərsək, məqsədimizə nail olarıq... Məmləkətimiz əleyhinə gələ biləcək təhlükələrə qarşı, bu təhlükə istər sağdan olsun, istərsə də soldan olsun, xarici düşmənlərdən müdafiə etmək üçün sizdən kömək gözləyirəm". [4;1-29].

Bu müraciət təsadüfi deyildi. Ölkə daxilində sabitliyin nisbətən möhkəmlənməsinə, bir sıra ərazilərdə hakimiyyətin bərpa olunmasına baxmayaraq, koalisiyalı əsaslarda formalaşdırılmış hökumət öz fəaliyyəti ilə əlaqədar müxtəlif çətinliklərlə qarşılaşırdı. Hökumətin təşkilində iştirak etmiş bəzi parlament firqələri müəyyən şərtlər irəli sürür, kabinetin tərkibində öz mənafelərinə uyğun dəyişikliklərə nail olmağa çalışırdılar. Bu isə hökumətdaxili mübarizəni kəskinləşdirir, qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsinə maneçilik törədirdi. Belə bir durumda N.Yusifbəyli 1919-cu il sentyabrın 18-də parlament sədrinə məktub yazıb sosialist və "Əhrar" firqələrinin hökumətə etibarı müəyyən şərtlərə bağladıqları üçün istefa verdiyini bildirmişdi. Bu, ciddi bir xəbərdarlıq idi və mövcud vəziyyətdən çıxış yolu axtarılması üçün təcili tədbirlər görülməsini tələb edirdi. Başı daxili münaqişələrə qarışdırılan bir hökumətin lazımi səmərə ilə işləyə bilməyəcəyi aydın idi. Bunu nəzərə alan parlament sədri 22 sentyabrda firqələrin razılığı əsasında Nəsib bəy Yusifbəyliyə yeni kabinet yaratmaq təklifi ilə müraciət etdi. [11].

Cümhuriyyətin dördüncü hökuməti faktiki, yeni hökumətin təşkil olunduğu 1919-cu ilin 22 dekabrına qədər üzərinə düşən funksiyaları yerinə yetirdi. Bir məqamı da qeyd edək ki, 1919-cu ilin son ayları, xarici missiyaların, xüsusi ilə Amerika və İtaliya dövlətlərinin nümayəndələrinin Azərbaycana ciddi maraq göstərmələri, ingilislərdən sonra ümumən Qafqazda nüfuz dairəsi yaratmaq təşəbbüsləri ilə xarakterik olmuşdur. Rusiyanın başının daha çox öz daxili problemlərinə qarışdığı bir vaxtda bu cəhdlərin müəyyən uğurlarla nəticələnməsi mümkün idi. Şərur-Naxçıvan vilayətlərində ermənilərlə azərbaycanlılar arasında silahlı toqquşma ilə pozulmuş sülhün, əhalinin əmlakı və şəxsi təhlükəsizliyinin bərpası üçün növbəti təşəbbüslərdən biri Amerika dövlətinin nümayəndəsi Vilyam Haskel tərəfindən göstərilmişdi. Haskel bu ərazini idarə edən şəxs kimi oktyabrın 23-də Naxçıvanda Amerika general-qubernatorluğu yaradıldığını bildirirdi. Amerika nümayəndəsinin bölgədə mübahisəli məsələlərə yanaşması ilə bağlı daha çox bir cəhətə diqqəti yönəldək ki, bütün xarici missiyalar Qafqazda öz nüfuzlarını möhkəmləndirmək üçün ilk əvvəl burada guya mümkün münaqişə ocaqlarını ləğv etmək məqsədi güddüklərini göstərməyə çalışırdılar. Görünür, bununla bölgədə yaşayan xalqların daxili problemlərinə daha dərindən nüfuz etməklə on-

larla yaxından tanış olmaq, ən başlıcası isə özləri barəsində sülhməramlı dövlət imici formalaşdırmaq istəyirdilər. Çünki əks halda həmin bölgədəki maraqları ciddi təhlükələrə məruz qalar, nəzərdə tutulan layihələrin reallaşdırılması qeyri-mümkün olardı. Bütün bunların mahiyyətini dərindən başa düşən hökumət başçısı və üzvləri güclü Qərb dövlətlərini təmsil edən xarici missiyalara son dərəcə ehtiyatla yanaşır və onların imkanlarından istifadə etməklə həm qədim ərazilərimizin işğal edilməsinin qarşısını almağa, həm də bölgədə əmin-amanlığa nail olmağa çalışırdılar. Daxildə və sərhədin bir addımlığında kifayət qədər düşməni olan Azərbaycanın özünə yeni əleyhdarlar qazanmasına yol verməkolmazdı. Azərbaycan hökuməti belə məqamları nəzərə alır, düşünülmüş addımlar atırdı.

1919-cu il dekabrın 22-də keçirilən iclasında N.Yusifbəyli dördüncü hökumətin ötən müddətdə gördüyü başlıca işləri və qarşıda duran ən mühüm vəzifələri belə səciyyələndirmişdi: "Sizə məlumdur ki, vətənimizin böyük hissəsi yad əllərdə idi. Lənkəran qəzası bizim tərəfimizdən azad edilmişdir... İkinci məsələ Qarabağ məsələsidir. Qarabağ haqqında danışarkən biz dörd qəzanı nəzərdə tuturuq. Son vaxtlar müxtəlif intriqalarla və fəsadlarla Zəngəzur qəzasının Qarabağdan kənarda yerləşməsini sübut etmək istəyirlər. Yüz və min illərdir ki, Zəngəzur Qarabağın tərkib hissəsidir, Qarabağ isə Azərbaycanın ürəyidir, buna görə də aydındır ki, bu fəsadlardan bir şey çıxmayacaq. İndi Qarabağın üçdə ikisi bizim əlimizdədir, Zəngəzur qəzasının yarısı isə qiyamçıların əlindədir. Bizə deyirlər ki, ola bilər burada da məsələni sülhlə həll etmək olar və böyük dövlətlərin nümayəndələri bunun tərəfdarıdır. Biz sülhün əleyhinə deyilik. Biz, ümumiyyətlə, bütün məsələlərin həllində sülhü vasitə seçmişik... Üçüncü məsələ Şərur-Naxçıvan məsələsidir, yaxud əhalisinin əsas hissəsini azərbaycanlılar təşkil edən İrəvan quberniyasının bir hissəsinin məsələsi". [5; 18-47].

Həmin dövrdə erməni quldurlarının Ermənistan hökumətinin də köməyi, hətta birbaşa iştirakı ilə Azərbaycan ərazilərində, xüsusi ilə Qarabağda, Zəngəzurda. Şərur-Dərələyəz mahalında, İrəvan quberniyasında və digər ərazilərdə törətdikləri kütləvi qətliamların, qırğınların qarşısının alınması üçün hökumət mümkün olan bütün tədbirləri görməyə çalışırdı. Ancaq o zaman Cənubi Qafqazda mövcud olan müxtəlif missiyaların himayəsinə arxalanan və əldə olunmuş razılaşmaları mürəkkəbi qurumamış pozan erməni tərəfi hər fürsətdə türk-müsəlman soyqırımlarını davam etdirir, həmin əraziləri ələ keçirmək üçün faktiki etnik təmizləmə aparırdı. Həmin dövrdə Ermənistan hökumətinə başçılıq edən O.Kaçaznuni 1923-cü ildə Buxarestdə yazdığı "Daşnaksutyuna bir iş qalmadı!" əsərində (1923-cü ildə həmin partiyanın xarici orqanlarının konfransına təqdim edilmiş məruzə) etiraf edirdi: "Rəsmi olaraq Azərbaycanla müharibə vəziyyətində olmasaq da, Qarabağda vuruşurduq və onlarla Qazaxda da tez-tez toqquşmalarımız olurdu. Ağbabada, Zodda, Zəngibasarda, Vedibasarda, Şərur-Naxçıvanda, Zəngəzurda və sair yerlərdə yerli müsəlman əhalisi ilə qanlı döyüşlər olurdu… inzibati tədbirlərlə müsəlman rayonlarında qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın təşkil etməyə və hətta bunda hakimiyyət orqanlarının nüfuzunu, şübhəsiz, aşağı salan uğursuzluqlarla qarşılaşmağa məcbur olduq". [13;33].

Dördüncü hökumət yalnız ölkə daxilində deyil, qonşu dövlətlərin ərazisində kompakt yaşayan türk-müsəlman əhalinin təhlükəsizliyinin təmin edilməsini də daim diqqətdə saxlayırdı. Bu baxımdan Ermənistanda və Türkiyənin Qars bölgəsində ermənilər tərəfindən soyqırıma məruz qalan soydaşlarımızın taleyi Azərbaycan hökumətinin və parlamentinin daim diqqətində olmuş, bu istiqamətdə müvafiq qərarlar qəbul edilmiş, tədbirlər görülmüşdür. [5; 18-47].

Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü hökumətinin dövlətin hərbi, siyasi təhlükəsizliyinin təmin olunması istiqamətində həyata keçirdiyi ardıcıl və uğurlu tədbirlərin nəticəsi idi ki, növbəti hökumətin fəaliyyətə başlamasından təqribən 20 gün sonra, 1920-ci il yanvarın 11-də Avropa dövlətləri tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin tanınması barədə memorandum elan olundu. [2;5].

### Ədəbiyyat siyahısı

1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (Stonoqrafik hesabatlar) I cild, Bakı, "Azərbaycan", 1998, 976 s.

2. ARDA, f.894, s.10, iş 135, v. 5.
3. ARDA, f.895, s.1, iş. 82, v. 70-72.
4. ARDA. f.895, s. 1, iş 138, v. 1-29.
5. ARDA, f.895, s.1, iş 177, v. 18-47.
6. ARDA, f.970, s.1, iş.142, v. 91-93.
7. ARDA, f.2894, s.1, iş 3, v. 77.
8. ARDA, f.2894, s.1, iş 35, v.32.
9. ARDA, f.2898, s.1, iş 13, v.1.
10. “Azərbaycan” qəzeti, 22 avqust 1919-cu il.
11. “Azərbaycan” qəzeti, 30 oktyabr 1919-cu il.
12. DTX arxivi, RS - iş 2107. v. 11.
13. Качазнуни О. Дашнакцутюн больше нечего делат!, Тифлис, Заккнига, 1927, с. 33.

## Summary

**Latif Babayev**

## About the activity of the Fourth Government of the Azerbaijan Democratic Republic in ensuring the military and political security of the country

The analysis of the security policy implemented by the independent Republic of Azerbaijan during the period of the fourth government (April 14, 1919 – December 22, 1919) shows that the main directions of the government consisted of the preservation of the military and political security of the country. The government has implemented consistent reforms in these directions and for these purposes has taken several steps to improve the activity of the government structures responsible for the security issues as well as took steps to launch independent institutions.

The regularity of the threats for the security of the military and political security of Azerbaijan can be determined as follows: the Bolsheviks who captured the power in Russia from the north and south of Azerbaijan as well as the real threats created by the voluntary army of Denikin, who tried to restore the Tzar Russia in its old territories, from south-west the fear of invasion expected by Armenia, as well as Turkish-Muslim genocide performed by the Armenian thief army in Zangezur, Karabagh, from the south, in Lankaran district, one that captured the biggest territory of the country, the power was in the hands of the hostile forces, who were enemies to Azerbaijan, the difficulties met in different direction during the establishment of the government and other actual problems. The solution of these problems, to guarantee the security of the young government in all directions, neutralization of the existing and potential problems demanded to take concrete and effective actions. Among these problems there were ones created by the provocative actions of some forces, especially Bolsheviks groups.

The open-secretive threats against Azerbaijan and its state security, made it necessary to take urgent and complex actions by the government especially in the field of defense. In order to solve all these mentioned problems, with the suggestion of the Parliament of Azerbaijan, the Board of Ministers adopted a decree to establish the State Defense Committee on June 9, 1919 who had extraordinary authority. The institution who would be led by the Prime Minister would mainly involve in defense issues of the country, would pronounce military and war conditions, would organize general military mobilization, would organize voluntary defense groups, in order to achieve high performance in these groups, would organize new structures and would have other great authorities as needed.

One of the first decrees of this institution to strengthen the security of the government was to launch the first independent special service body of Azerbaijan called “The Defense Organization against Counter-Revolution” the (DOCR) on June 11. It can be specially noted that not depending on the organizational form, the DOCR was authorized to implement the important activities in the directions of safeguarding the state independence of the country, ensuring the territorial integrity, preventing separatism or internal or external hostile intentions.

Generally, the activity period of the fourth government to ensure the military and political security of the country was the most intensive period comparing to the previous governments and this conclusion is supported by some facts and documents. Also, in the result of the complex and regular activities of the fourth government in regard to ensuring the state safety, the coordination among state structures have been strengthened, the geographics and appliance of the activities have resulted in accomplishing more effective organizational development.

Another moment that needs to be noted in this regard was the serious interest of the international missions, especially the interests of the representatives of the USA and Italy towards Azerbaijan during the last months of 1919, was an initiative to establish a circle of authority in Azerbaijan after English authorities left Azerbaijan in the month of August.

***Keywords:*** *Azerbaijan Democratic Republic, security, the military and political security, independence,* state, *government, parliament, defense, territory, army*

**Резюме**

**Латиф Бабаев**

**О деятельности 4-го правительства Азербайджанской Демократической Республики по обеспечению военно-политической безопасности страны**

Анализ политики безопасности, реализуемой независимым Азербайджанским государством в период правления 4-го правительства Азербайджанской Демократической Республики (14 апреля 1919 года – 22 декабря 1919 года) показывает, что в то время в этой области основные направления деятельности правительства были вопросы обеспечения военно-политической безопасности. Правительство приняло последовательные меры в этих направлениях и с этой целью сделало шаги, связанные с совершенствованием деятельности государственных структур, отвечающих за вопросы безопасности, и созданием независимого учреждения.

В тот период можно определить последовательность основных угроз военно-политической безопасности Азербайджана таким образом: реальные опасности, исходящие от большевиков, которые захватили власть в России с севера и юга Азербайджана, а также Добровольческой армии Деникина, претендующей на восстановление царской России на прежних территориях; угроза агрессии, ожидаемая Арменией с юго-запада, включая турецко-мусульманские массовые убийства, совершенные армянскими бандитами в Зангезуре и Карабахе; с юга, в Ленкораньском районе, который составляет большую территорию страны, где управление находилось в руках враждебных Азербайджану сил; напряженная ситуация с соседями, в основном армянами, вызванная территориальными и приграничными проблемами; трудности, возникшие на различных направлениях государственного строительства и другие актуальные вопросы.

Решение всех этих проблем требовало полное обеспечение безопасности молодого государства, конкретных и эффективных мер по нейтрализации существующих и потенциальных угроз. Среди них были внутренние проблемы, вызванные провокационными действиями некоторых сил, особенно большевиков.

Открытые и тайные угрозы Азербайджану и его государственной безопасности, особенно в сфере обороны, заставило правительство принять срочные и комплексные меры. Для решения указанных проблем по рекомендации парламента Азербайджана 9 июня 1919 года Совет Министров принял решение о создании Государственного Комитета Обороны с чрезвычайными полномочиями. Это учреждение должен был возглавлять премьер-министр. Оно в основном должно было заниматься вопросами обороны и безопасности, и обладать широкими полномочиями, такими как объявление военной ситуации в стране, проведением все-

общей военной мобилизации, созданием добровольных отрядов обороны, организацией новых структур для более успешного выполнения этих задач и т.д.

Одним из первых решений этого учреждения в сфере укрепления безопасности государства стало создание первого независимого органа спецслужб Азербайджана – «Организации по борьбе с контрреволюцией» 11 июня 1919 года. Можно особо подчеркнуть, что на эту организацию, отвечающую за ведение разведывательной и контрразведывательной деятельности во всех учреждениях, было возложено выполнение важных задач по более эффективной организации деятельности в области обеспечения государственной независимости, территориальной целостности, предотвращение сепаратизма, любых темных замыслов внешних и внутренних вражеских сил.

В целом, по обеспечению государственной безопасности в военно-политических сферах Республики период деятельности 4-го правительства считается самым напряженным временем по сравнению с предыдущими правительствами. И ряд фактов и документов подтверждают этот вывод. Также в результате комплексных и последовательных действий 4-го правительства, связанных с обеспечением государственной безопасности, усиление координации между соответствующими государственными органами, география мероприятий и расширение сфер ее применения, достижение более эффективной организации действий в этой области можно охарактеризовать как важные факторы.

В связи с этим следует отметить еще один момент. Последние месяцы 1919 года характеризовались тем, что иностранные миссии, особенно представители американского и итальянского государств, проявляли серьезный интерес к Азербайджану и инициативы по созданию круга влияния в целом на Кавказе после ухода британцев из Азербайджана в августе.

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика, безопасность, военно-политическая безопасность, независимость, государство, правительство, парламент, оборона, территория, армия*